**Tətbiqi riyaziyyat və kibernetika fakültəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) 2020-ci il**

# HESABATI

Hesabat dövründə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbələri, magistrant və doktorantları aşağıdakı beynəlxalq və respublika konfranslarında məruzələrlə çıxışlar etmiş, Yay məktəbi və Vebinarlarda iştirak etmişdilər.

31 yanvar 2020-ci il tarixində Moskva şəhərində keçirilən “Современные проблемы и перспективные направления инновационного развития науки”» mövzusunda keçirilən Beynəlxalq elmi-praktiki konfrans;

03 fevral 2020 ci il tarixində Bakı Dövlət Universitetində (BDU) “2 fevral – Gənclər Günü” münasibətilə keçirilən tədbirdə iştirak etmişik;.

12-15 fevral 2020 ci il tarixində Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhəri Hacı Bayram Vəli Universitetində keçirilən “Ekonometrika, Əməliyyatlat tədqiqi və Statistika” adlı XX Beynəlxalq konfrans;

17 fevral 2020 ci il tarixində Bakı Dövlət Universitetində “Qarabağ: Əcdadlarımızın mirası” sənədli filminin nümayişində iştirak etmişik. Nümayiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının icrasının təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin keçirdiyi silisilə tədbirlər əsasında, ilk olaraq Bakı Dövlət Universitetində baş tutub. “Qarabağ: Əcdadlarımızın mirası” adlı sənədli filmi Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin birgə əməkdaşlığı çərçivəsində hazırlanıb.

20-21 may 2020-ci il tarixlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş «Riyaziyyat, Mexanika və onların tətbiqləri» mövzusunda keçirilən virtual elmi konfrans;

20-31 may 2020-ci il tarixində fakültə əməkdaşları, tələbələr, magistrant və doktorantlar “Azərkosmos”un “Evdə qal, elmdən və təhsildən qalma!” adlı təşəbbüsü 4 hissədən ibarət aktual mövzuları əhatə edən “Süni İntellekt”, “Big Data”, “Robototexnika” sahələri ilə bağlı vebinarlarda iştirak etmişlər. Burada Elektronika və elektromexanika komponentləri, dövrə ləvazimatları, passiv və aktiv elektronika komponentləri proqram riyaziyyatı, proqramın gedişatına nəzarət haqqında məruzələr dinlənilib. Aparılan müzakirələrdə Zoom platforması üzərindən onlayn iştirak edilib.

3-4 iyun 2020-ci il tarixində Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cumhuriyyətinin 102-ci ildönümünə həsr olunmuş “Riyaziyyatin Tətbiqi Problemləri” mövzusunda Respublika virtual elmi konfrans;

11 iyun 2020-ci il tarixində 15 iyun-Milli Qurtuluş gününə həsr olunmuş “Heydər Əliyev Müasir Azərbaycanın qurucusudur” mövzusunda keçirilən virtual elmi konfrans;

24-27 iyun 2020-ci il tarixində Türkiyənin İstanbul Yildiz Technic Universitetinin təşkilatçılığı ilə keçirilən virtual elmi konfrans;

3-4 iyul 2020-ci il tarixində "Riyaziyyatın fundamental problemləri və intellektual texnologiyaların təhsildə tətbiqi" Respublika konfrans;

7-9 iyul 2020-ci il tarixində Sankt-Peterburq şəhərində keçirilən" International Congress on new trends in Science, Engineering and technology" adlı beynəlxalq elmi konfrans;

20-24 iyul 2020-ci il tarixində bakalavr və magistrantlar "Mobile Application Development and Game Design" layihəsinin Avropa İttifaqı nümayəndələri və Partnyor universitetlərin tələbələrinin də qatıldığı Erasmus+ KA2 layihəsinin onlayn təşkil edilən yay məktəbində iştirak etmişdirlər.

26-28 avqust 2020-ci il tarixində "$7^{th}$ International Conference on Control and Optimization with Industrial Applications" adlı beynəlxalq elmi konfrans;

22 noyabr 2020-ci il tarixində "Mənə bir hərf öyrədənin 40-il köləsi olaram" "vebinarında

15 dekabr 2020-ci il tarixində Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi və Tələbə Gənclər Təşkilatının birgə təşəbbüsü ilə Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirdə iştirak etmişik.

16 dekabr 2020-ci il tarixində "Startap Nədir?" vebinarında iştirak etmişik.

18 dekabr 2020-ci il tarixində Bakı Dövlət Universitetinin Tələbə Gənclər təşkilatlarının (TGT) təşəbbüsü ilə Azərbaycan Respublikasında "İnformasiya cəmiyyəti inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə" 2016-2020 illər üçün Dövlət proqramı çərçivəsində "İnternet media və informasiya təhlükəsizliyi" adlı onlayn tədbirdə iştirak etmişik.

**Tətbiqi riyaziyyat və kibernetika fakültəsi**
**Tələbə Elmi Cəmiyyətinin sədri:** **Zeynəb İskəndərli**